| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZH150, Azərbaycan tarixi, 6 AKTS |
| | **Departament** | Tarix və Arxeologiya departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Kəmalə Mustafayeva |
| | **E-mail:** | kmustafayeva@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı**<br>**Cədvəl** | |
| | **Məsləhət saatları** | **Tələbələrlə razılaşdırılmış vaxtda** |
| **Prerekvizitlər** | **Yoxdur** | |
| **Tədris dili** | **Azərbaycan dili** | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas dərsliklər:**<br>1. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Nuriyeva İradə Tofiq qızı.– Bakı: Elm və təhsil, 2024<br>2. Azərbaycan tarixi (ən qədim zamanlardan müasir dövrədək). Nağı Akif, Bakı, “Zərdabi Nəşr” MMC, 2025<br>3. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək). Həsən Qəniyev. Bakı, Elm və Təhsil 2019<br>4. Azərbaycan tarixi (ən qədim zamanlardan - XXI əsrin ilk onilliklərinədək) Ali məktəblər üçün dərslik. M.Q.Abdullayevin redaktəsi ilə. Bakı, Bakı Universiteti, 2014, 2016, 2019. (bütün nəşrlər uyğundur)<br>**Əlavə dərsliklər və elmi monoqrafiyalar:**<br>1. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər) red. prof. Süleyman Əliyarlı. Bakı, 2009.<br>2. Azərbaycan tarixi, I cild (Ən qədim zamanlardan XX əsrədək). Z. Bünyadovun və Y. Yusifovun redaktəsilə. Bakı, 2005.<br>3. XX əsr Azərbaycan tarixi, II cild, Red. Y.B. Yusifov və T.T. Vəliyev. Bakı, 2004. Azərbaycan tarixi üzrə qaynaqlar, red. S.Əliyarlı Bakı, 2007. | |
| **Kursun təsviri** | Azərbaycan tarixi kursu qədim zamanlardan bu günə qədərki vətən tarixini əhatə edir. Kurs müddətində hadisələrin təsviri xronoloji ardıcıllığa uyğun şəkildə qurulmuşdur. Müasir dövrdə baş verən hadisələr yeni faktlarla zənginləşdirilib, müəyyən dövrlərdəki boşluqlar doldurulmaqdadır. Bu baxımdan, tədris proqramının tərtibi zamanı son illərin baş verən hadisə və faktlarına yer verilməsinə diqqət artırılmış və yeni tədqiqatçıların ədəbiyyatlarına yer verilmişdir. Fənnin təsviri zamanı Azərbaycanın tarixini, keçmişini, mədəniyyəti və mənəvi dəyərlərini tam əhatə edilməsinə çalışılmışdır. | |
| **Kursun məqsədi** | Kursun məqsədi Azərbaycan tarixi haqqında tələbələrdə bitkin və dolğun təsəvvürün formalaşdırılması, Vətən tarixi haqqında ümumi dünyagörüşünün inkişafı, Azərbaycanın etnogenez məsələsinin aydınlaşdırılması və mənəvi dəyərlərə sevgi, hörmət və ehtiramın aşılanmasıdır. | |

<table>
<tr><td rowspan="1">Tədris-öyrənmə nəticələri</td><td colspan="3">Fənnin ümumi tədrisi prosesində tələbələr:<br>Azərbaycan tarixindəki əhəmiyyətli hadisələri təhlil edib, anlaya biləcək;<br>Azərbaycan tarixində xronoloji faktların, hadisə və təzahürlərin yerini və fərqini müəyyənləşdirə biləcək;<br>Azərbaycanın dövlətçilik tarixini, yaranması və inkişafını dəyərləndirə biləcək;<br>Tariximizdə önəmli rola malik tarixi şəxsiyyətlərin fəaliyyəti haqqında daha dərindən biləcək;<br>Vətəninin maddi mədəniyyət abidələrini, mənəvi dəyərlərini qiymətləndirməyi bacaracaq;<br>Müasir dövrün siyasi və ictimai hadisələrini daha dərindən təhlil edərək analiz etməyi bacaracaq.</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">X</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">X</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">X</td></tr>
<tr><td>Praktiki məsələnin təhlili</td><td colspan="2">X</td></tr>
<tr><td rowspan="7">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%), bal</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Aprel</td><td>30</td></tr>
<tr><td>Yoxlama yazı işi<br>(quiz)</td><td>Aralıq imtahanı öncəsi<br>Final imtahanı öncəsi</td><td>20</td></tr>
<tr><td>Qrup işi</td><td>Semestr boyu</td><td>5</td></tr>
<tr><td>Prezentasiya</td><td>Semestr boyu</td><td>10</td></tr>
<tr><td>Final imtahanı</td><td>İyun</td><td>35</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Dərsin təşkili<br>- Fənnə aid ümumi xarakterli məlumatlar mühazirə zamanı tələbələrə çatdırılacaq, dərslərdə qrup müzakirəsi aparılacaq, praktiki tapşırıq və məsələlərin analiz və təhlili ilə mövzular möhkəmləndiriləcəkdir.<br>- Yeni mövzu əyani vasitələrin (PPT xəritə, foto və video fayllar) nümayişi ilə izah ediləcəkdir.<br>Prezentasiya<br>Prezentasiyanın əsas məqsədi tələbələrə tədqiqat bacarığının öyrədilməsi, tariximizin ən qədim zamanlardan bu günə kimi dövrü ilə bağlı istənilən mövzu ətrafında müstəqil şəkildə hazırlıq qabiliyyətini aşılamaqdır. Prezentasiya həm yazılı, həm də təqdimat şəklində tələb olunur. Mövzular müstəqil şəkildə hazırlanaraq prezentasiya şəklində təqdim edilir. Prezentasiya mövzuları ilk dərsdə tələbələrə müstəqil seçim əsasında təqdim olunacaqdır. Tələbələr məlumatı yalnız elektron formada, fərdi şəkildə təqdim etməlidirlər. Tələbənin tədqiqatçılığı, nitqi, təqdimetmə bacarığı, mülahizə və analiz qabiliyyəti qiymətləndirmədə əsas rola malikdir.<br><u>Prezentasiya üçün tələblər:</u><br>Prezentasiyanın əsas məzmunu özündə ehtiva edən foto, video və yazı hissələrindən ibarət slaydlar (Power Point, Canva və digər təqdimat proqramları vasitəsilə aparıla bilər).</td></tr>
</table>

| | |
|---|---|
| | Prezentasiya ən azı 10, ən çoxu 20 slayddan ibarət olmalıdır.<br>Prezentasiya vaxtı sonunda müzakirə də daxil olmaqla 15 dəqiqədən artıq olmamalıdır.<br>Prezentasiyanın sonunda istinadlar verilməlidir.<br>Tələbə mütləq onu şifahi təqdim etməlidir.<br>**Qeyd:** Tələbələr tapşırıqları yerinə yetirərkən plagiarizmə yol verməməli, əldə etdikləri məlumatların mənbələrinə istinad etməli və istinadları göstərməlidir. Tələbələrin qiymətləndirmə üçün müəllimə təqdim etdiyi tapşırıqlarda 25% və daha artıq Plagiarizm halları (müvafiq istinadların mənbəyinin göstərilməsi halları istisna olmaqla) aşkarlandığı zaman iş sıfırlanır.<br>**Yoxlama işi (Quiz)**<br>Birinci yoxlama noyabr ayının ilk həftəsi aralıq imtahanından öncə (10 bal), ikincisi isə dekabr ayının üçüncü həftəsi final imtahanından öncə (10 bal) nəzərdə tutulur. Hər iki yoxlamada 1 ballıq 10 test (açıq və ya qapalı) sualı veriləcəkdir. Hər bir yoxmalaya 15-20 dəqiqə vaxt ayrılır. Köçürmə halında yoxlama işi ləğv edilir.<br>**Yoxlamada iştirak etməyən tələbə üçün yenidən yoxlama keçirilmir.**<br>**İstisna:** Tələbə daha sonra yoxlama işin keçirildiyi gündə üzrlü səbəbdən iştirak edə bilməməsi haqqında hər hansı bir sənəd (ərizə və ya arayış) təqdim edibsə, müəllimin icazəsi ilə ona yenidən yoxlama keçirilə bilər. Bu halda tələbə növbəti həftə yoxlama işini yaza bilər.<br>**Qrup işi**<br>İkinci dərsdən etibarən hər dərs keçilən mövzu əsasında aparılan qrup işlərində aktiv iştiraka görə qiymətləndirmə aparılır.<br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Dərsə 10 dəqiqə gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır. Bu fənn çərçivəsində davamiyyətə görə qiymətləndirmə aparılmır.<br>**İmtahan qaydaları**<br>Aralıq imtahanı 1-7-ci həftənin, Final imtahanı isə 8-15-ci həftənin mövzularını əhatə edir.<br>Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır. Final imtahanı sualları aralıq imtahandan sonra keçirilmiş materiallar əsasında tərtib olunur. İmtahan sualları müxtəlif bal bölgüsünə malik olan açıq suallar şəklində hazırlanacaqdır.<br>**Fənni bitirmək qaydası**<br>Fənn üzrə ümumi dərs saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır. Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**Tələbələrin davranış qaydaları** |

| | |
|---|---|
| | Dərs zamanı dərs prosesini və etik qaydaları pozmağa, həmçinin, tələbələr arasında dərsdənkənar müzakirələrə icazə verilmir. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | | Tələbələri Azərbaycan tarixi fənninin sillabusu və onların qarşısında duran vəzifələrlə tanış etmək.<br>**MÖVZU № 1. AZƏRBAYCAN QƏDİM DÖVRDƏ**<br>Azərbaycanda ibtidai icma cəmiyyəti və onun mərhələləri<br>Azərbaycan ərazisində erkən dövlət qurumları. Manna dövləti<br>Azərbaycan torpaqları Midiya və fars Əhəmənilər dövlətlərinin tərkibində<br>Atropatena və Albaniya antik dövrdə<br>**MÖVZU № 2. AZƏRBAYCAN ERKƏN ORTA ƏSRLƏRDƏ (III-IX əsrlər)**<br>III-IX əsrlərdə Azərbaycan ərazisində sosial-iqtisadi vəziyyət. Feodal istehsal üsulunun meydana çıxması və təşəkkülü<br>Atropatena və Albaniya Sasanilər dövlətinin tərkibində<br>Sasani-Bizans müharibələri<br>Azərbaycan torpaqları Ərəb Xilafətinin tərkibində. İslam dininin yayılması<br>Xürrəmilər hərəkatı.<br>Azərbaycan xalqının və dilinin təşəkkülü | Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Nuriyeva İradə səh 12-33<br><br>Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Nuriyeva İradə səh 43-71 |
| 2. | | **Mövzu № 3. AZƏRBAYCAN İNTİBAH DÖVRÜNDƏ (IX-XIII ƏSRİN ƏVVƏLLƏRİ)**<br>Azərbaycan torpaqlarında IX-XI əsr feodal dövlətləri<br>Slavyanların Azərbaycana yürüşləri<br>Azərbaycan torpaqlarında Səlcuq türklərinin hökmranlığı<br>Şirvanşahlar və Atabəylər dövlətləri<br>Azərbaycan intibah mədəniyyəti | Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Nuriyeva İradə səh 79-96 |
| 3. | | **Mövzu № 4. AZƏRBAYCAN XIII-XV ƏSRLƏRDƏ**<br>Monqolların Azərbaycan torpaqlarına yürüşləri. Hülakülər dövləti<br>Qızıl Orda xanı Toxtamış və Əmir Teymurun Azərbaycana yürüşləri. Şirvanşah I İbrahim.<br>Azərbaycan XV əsr dövlətləri<br>XIII-XV əsrlərdə Azərbaycan ərazisində sosial-iqtisadi vəziyyət | Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Nuriyeva İradə səh 107-132 |
| 4. | | **Mövzu № 5. AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ**<br>Səfəvilər dövlətinin yaranması və Azərbaycanın tarixində onun yeri<br>XVI-XVII əsr Səfəvi-Osmanlı müharibələri və Azərbaycan<br>XVI-XVII əsrlərdə Azərbaycan torpaqlarında sosial-iqtisadi və mədəni həyat<br>**Mövzu № 6. XVIII ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCANDA İCTİMAİ VƏ SİYASİ VƏZİYYƏT**<br>Azərbaycan Səfəvilər dövlətinin tənəzzülü və süqutu | Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Nuriyeva İradə səh 147-168<br><br>Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). |

| | | | |
|---|---|---|---|
| | | Azərbaycan torpaqları uğrunda Rusiya, İran və Osmanlı çəkişmələri<br>Azərbaycan Nadir şahın hakimiyyəti dövründə<br>XVIII əsrin 30-40-cı illərində Azərbaycan ərazisində xalq hərəkatları | Nuriyeva İradə<br>səh 191-203 |
| **5.** | | **Mövzu № 7. AZƏRBAYCAN ƏRAZİSİ XANLIQLAR DÖVRÜNDƏ**<br>Azərbaycan xanlıqlarının yaranması və onların ictimai-iqtisadi vəziyyəti<br>Azərbaycan xanlıqlarının qarşılıqlı münasibətləri<br>Azərbaycan xanlıqlarının xarici siyasi əlaqələri. Rusiya və İranın işğalçılıq siyasətinə qarşı mübarizə<br>XVIII əsr Azərbaycan mədəniyyəti | Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək).<br>Nuriyeva İradə<br>səh 203-232 |
| **6.** | | **Novruz bayramı** | |
| **7.** | | **Aralıq imtahanı** | |
| **8.** | | **Mövzu № 8. AZƏRBAYCAN XIX ƏSRDƏ**<br>Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsi<br>XIX əsrin 30-40-cı illərində Azərbaycan ərazisində sosial-iqtisadi münasibətlər. Rus müstəmləkə zülmünə qarşı üsyanlar<br>XIX əsrin ikinci yarısında Azərbaycan ərazisində aqrar və burjua islahatları. Kapitalist münasibətlərinin təşəkkülü<br>XIX əsrdə çarizmin köçürmə siyasəti<br>XIX əsr Azərbaycan mədəniyyəti<br>Cənubi Azərbaycan XIX əsrin ikinci yarısında | Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək).<br>Nuriyeva İradə<br>səh 243-305 |
| **9.** | | **Mövzu № 9. AZƏRBAYCAN XX ƏSRİN İLK ONİLLİKLƏRİNDƏ (1901-1918)**<br>XX əsrin əvvəllərində Şimali Azərbaycanda iqtisadi və siyasi vəziyyət. Siyasi partiya və təşkilatların yaranması<br>Azərbaycan I Dünya müharibəsi illərində<br>1917-1918-ci ilin əvvəllərində Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət. 1918-ci il mart soyqırımı<br>XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti. Maarif və elm<br>XX əsrin əvvəllərində Cənubi Azərbaycanda demokratik və milli-azadlıq hərəkatları. 1905-1911-ci illər Məşrutə inqilabı. Ş.M.Xiyabaninin başçılığı ilə demokratik və milli azadlıq hərəkatı (1917-1920-ci illər)<br>Urmiya faciəsi (1917-1918) - Cənubi Azərbaycanda azərbaycanlıların soyqırımı. | Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək).<br>Nuriyeva İradə<br>səh 315-359 |
| **10.** | | **Mövzu № 10. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (1918-1920-ci illər)**<br>Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun hakimiyyətinin bütün Şimali Azərbaycan ərazisinə bərqərar edilməsi | Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək).<br>Nuriyeva İradə<br>səh 275-397 |

| | | | |
|---|---|---|---|
| | | Milli dövlət quruculuğu. Azərbaycan parlamenti<br>Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasəti<br>Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və tarixdə onun yeri | |
| **11.** | | **Mövzu № 11. AZƏRBAYCAN XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ**<br>Azərbaycanda sovet rejiminin bərqərar olması və ona qarşı üsyanlar<br>Azərbaycanda sovet milli siyasəti. DQMV-nin və Naxçıvan MSSR-nin təşkili<br>Azərbaycanda sosialist yenidənqurmaları, onların sosial iqtisadi və siyasi nəticələri. Kütləvi repressiyalar<br>Azərbaycan SSR-də mədəni quruculuq | Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Nuriyeva İradə səh 407-432 |
| **12.** | | **Mövzu № 12. AZƏRBAYCAN II DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ (1939-1945-ci illər)**<br>II Dünya müharibəsinin başlanması və müharibə edən dövlətlərin Azərbaycana dair planları<br>Azərbaycanlılar döyüş cəbhələrində, antifaşist müqavimət və partizan hərəkatlarında<br>Faşizm uzərində qələbədə Bakı neftinin rolu<br>Cənubi Azərbaycan II Dünya müharibəsi dövründə | Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Nuriyeva İradə səh 445-463 |
| **13.** | | **Mövzu № 13. AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏ SİYASİ İNKİŞAFI (1945-1991-ci illər)**<br>XX əsrin 40-60-cı illərində Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyəti<br>Azərbaycanlıların Ermənistandan-tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası<br>Azərbaycan SSR XX əsrin 70-80-ci illərində. "Yenidənqurma" şəraitində milli münasibətlərin kəskinləşməsi<br>Güney Azərbaycanı müharibədən sonrakı dövrdə | Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Nuriyeva İradə səh 447-500 |
| **14.** | | **Mövzu № 14. MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI**<br>Dövlət müstəqilliyinin bərpa olunması və onun möhkəmləndirilməsi uğrunda mübarizə<br>Azərbaycan Respublikası XX əsrin 90-cı illərinin ikinci yarısı-XXI əsrin ilk onilliklərində<br>Ərazi bütövlüyünün bərpa edilməsi uğrunda mübarizə. II Qarabağ (Vətən) müharibəsi və onun nəticələri | Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Nuriyeva İradə səh 515-689 |
| **15.** | | **Mövzu № 15. PREZENTASİYALARIN TƏQDİMATI VƏ DƏRSLƏRİN YEKUNU** | |
| | | **Final imtahanı** | |

**Prezentasiya mövzuları:**

1. Diyarşünaslıq muzeyləri (hər bir tələbə öz regionunda yerləşən muzey haqqında təqdimat hazırlamalıdır)
2. Bakı şəhərində yerləşən muzeylər və abidələr (Hər hansı biri seçilə bilər.)
3. Azərbaycanın şəhər və rayonları (regionun tarixi və keçmişi haqqında araşdırılmalıdır)
4. Tarixi şəxsiyyətlər: tarixçi, siyasi xadim. (sərbəst seçim)
5. Azərbaycan üçün Cənubi Azərbaycan məsələsi (Türkmənçay və Gülüstan müqavilələrinin mövqeyində)
6. Azərbaycan SSR-nin milli qəhrəmanları (Bir və ya iki şəxs seçilməlidir)
7. I Qarabağ müharibəsi qəhrəmanları və şəhidləri (Bir şəhid və ya milli qəhrəman seçilməlidir)
8. II Qarabağ müharibəsi qəhrəmanları və şəhidləri (Bir şəhid və ya milli qəhrəman seçilməlidir)
9. I Qarabağ müharibəsində şəhər və rayonların işğalı (Bir şəhər və ya rayon seçilməlidir. Bundan başqa tələbə kütləvi qırğınların aparıldığı kəndlərin və bölgələrin faciələrini mövzu olaraq seçə bilər)
10. 44 günlük Vətən müharibəsinin gedişi və nəticələri

**Qeyd:** ***Mövzunun əhatə dairəsindən asılı olaraq ən çoxu 4 tələbə eyni mövzunu seçə bilər.***